# Ey qullarım, Mən zülmü Özümə haram etdim və sizin də aranızda onu haram buyurdum, elə isə bir-birinizə zülm etməyin

Əbu Zərrdən (Allah odan razı olsun) belə ediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Uca Allahdan belə rəvayət etmişdir: "Ey qullarım, Mən zülmü Özümə haram etdim və sizin də aranızda onu haram buyurdum, elə isə bir-birinizə zülm etməyin. Ey qullarım! Hidayət verdiyim kəslərdən başqa hamınız zəlalətdəsiniz, elə isə Məndən hidayət diləyin, sizi doğru yola yönəldim. Ey qullarım! Mənim yedirdiyim kəslərdən başqa hamınız acsınız, elə isə Məndən yemək istəyin, sizi yedirdim. Ey qullarım! Mənim geyindirdiyim kəslərdən başqa hamınız çılpaqsınız! Elə isə Məndən geyim istəyin, sizi geyindirim. Ey qullarım! Siz gecə-gündüz günah işlər görürsünüz. Mən isə bu günahların hamısını bağışlayıram. Elə isə Məndən bağışlanma diləyin, Mən də sizi bağışlayım. Ey qullarım! Siz heç vaxt Mənə zərər verə bilməzsiniz və siz heç vaxt Mənə fayda verə bilməzsiniz. Ey qullarım! Əgər sizdən əvvəlkilər və sonrakılar, insanlarınız və cinləriniz bütövlüklə, aranızda Allahdan ən çox qorxan adamın qəlbinə sahib olsalar belə, bu, Mənim mülkümdə bir şeyi belə artırmaz. Ey qullarım! Sizdən əvvəlkilər və sonrakılar, insanlarınız və cinləriniz bütövlüklə, aranızdakı ən günahkar adamın qəlbinə sahib olsalar belə, bu, Mənim mülkümdən heç nəyi əskiltməz. Ey qullarım! Sizdən əvvəlkilər və sonrakılar, insanlarınız və cinləriniz bir yerə toplanıb Məndən istəsələr və Mən onların hər birinin istədiyini versəm, bu, sanki nəhəng dənizə iynəni batırıb çıxaran zaman dəniz suyunun əskilmədiyi kimi, Mənim də mülkümdən heçnə əskilməz. Ey qullarım, bu sizin əməllərinizdir. Onları sizin üçün hesaba alıram, sonra əvəzini verəcəm. Odur ki, kim xeyir tapsa, Allaha həmd etsin, əks halda qoy kimsə özündən başqa heç kəsi qınamasın”.

[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) pak və uca Allahın özünə zülmü haram etdiyini, məxluqatı arasında da bunu haram buyurduğunu və kiminsə kiməsə zülm etməməsinin vacibliyi barədə xəbər vermişdir. Allah xəbər verir ki, müvvəffəq etdiyi və doğru yola yönəltdiyi qulları istisna olmaqla, insanların hamısı haqq yoldan azıblar və kim Allahdan hidayət diləyərsə, Allah onu müvəffəq edib, doğru yola yönəldər. İnsanlar imkansız, bütün işlərində Allaha möhtacdırlar. Kim Allahdan istəsə, onun ehtiyacını ödəyər və ona yetər. Onlar gecə və gündüz günah edərlər, sonra isə qul uca Allahdan bağışlanma dilədikdə, O bu günahları örtüb gizlədər və onu əfv edər. onlar Allaha nə zərər, nə də fayda verə bilməzlər, Onların qəlbi ən təqvalı insanın qəlbi kimi olsa belə, təqavaları Allahın mülkünə bir şey əlavə etməz. Əgər onlar ən günahkar insanlar olsalar , günahları Onun mülkündən bir şey

əskiltməz, çünki onlar zəifdirlər, hər bir halda və hər zamanda və hər məkanda Allaha möhtacdırlar. Allah isə pak və zəngindir. Əgər cinlər və insanların əvvəlkiləri və sonuncuları bir yerə toplaşıb, uca Allahdan istəsələr, Allah onların hər birinə istədiklərini versə, bu dənizə batırılıb çıxarılan iynənin dənizdən bir şey əksiltmədiyi kimi, Allahın mülkündən də bir şey əksiltməz. Bu pak olan Allahın mükəmməl və sonsuz zənginliyinin göstəricisidr. Pak olan Allah qulların əməllərini qoruyub onlar üçün sayır, sonra Qiyamət günü onların qarşılığını verəcək. Kim əməlinə görə xeyirlə mükafatlanarsa, Allaha itaətə müvəffəq olduğu üçün Ona həmd etsin, kimin əməlinin nəticəsi xeyirli olmazsa , onu ziyana sürükləyən pis nəfsindən başqa heç kimi qınamasın.

https://sunnah.global/hadeeth/az/show/4810

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee